# Əziz şagirdim, sən bizə dərs verdin!

Salam, Əsgər!

Mənəm, sənin müəllimin!

O gün sosial şəbəkələrdə rəsmini gördüm, torpaqlarımızın azad olunmasında aslan kimi döyüşürsən, komandirin də məktəbimizə sənin cəsarətli və qorxmazlığın haqqında təşəkkür göndərmişdi. Bütün müəllimlərin o ildırım kimi parlayan gözlərin olan şəklinin altında yazmışdı ki, mənim şagirdim olub, fəxr edirəm! Mən də yazdım, amma utana-utana.

Çünki yadıma gəlir ki, sən dərslərini yaxşı oxumurdun. Mən və digər müəllimlərin səni danlayırdıq. Amma tarix müəllimin isə həmişə səni tərifləyirdi ki, o uşağı niyə gözümçıxdıya salmısınız?! Axı o, çox vətənpərvər oğlandır, cəsarətlidir, mərddir, öz amalı var, idmançı olacağını deyir, niyə bu qədər üstünə gedirsiniz? Bizsə buna məhəl qoymadıq, sənə həmişə 2-3 yazıb arxada otuzdurduq.

İndi isə görürəm ki, sən vətəndaşlıq dərsini yaxşı oxumuş, imtahanını da əla verirsən. Bizsə səni vaxtilə incitməyimizə baxmayaraq, indi xorla "mənim şagirdimdir" deyib, şəklini paylaşır, səninlə fəxr etdiyimizi deyirik. Düzdür, biz də sənin yaxşılığını istədiyimizdən elə edirdik, amma demək ki, bunu da düz etməmişik. Sən bizə dərs verdin! Öz əməlimdən utansam da, səninlə fəxr edirəm, oğul! Fəxr edirəm.

Sən ən böyük, ən yaxşı adamsan indi!

***Şəmil SADİQ***

Azərbaycan.- 2020.-23 oktyabr.- S.6.